Təhsilə dair axtardığınız bir çox kitabın elektron versiyasını “**Telegram**” kanalımızda tapa bilərsiniz (https://t.me/eSources).

Telegram:
Kanal: **@eSources**
Reklam, təklif və iradlarınız üçün: **@n4hkro**

- Kitablar ödənişlidir?
✓ Xeyr, təbii ki.

- Paylaşdığınız kitabları öz kanalımda paylaşa bilərəm?
✓ Bəli. Könül istərdi ki, paylaşarkən mənbə bildirəsiniz, amma təbii ki, heç kim sizi buna məcbur etmir.

- Bədii kitablar da paylaşırsınız?
✓ Xeyr, amma həmin kitab sizə dərs üçün lazımdırsa, istisna edərik.

- Azərbaycan Milli Kitabxanasından kitab yükləyirsiniz?
✓ Bəli. Onlayn şəkildə oxunulması mümkün olan istədiyiniz kitabı yükləyirik.

- Sizə kitab göndərsəm qarşılığında nə alacağam?
✓ Kanaldan maddi qazancımız olmadığı üçün, bizə göndərdiyiniz kitablara görə ən yaxşı halda sizin kanalınızı reklam edə bilərik.

2-ci nəşr

CƏBR-HƏNDƏSƏ DÜSTURLARI

Abituriyentlər üçün dərs vəsaiti



2012

arazyayınları

CƏBR- HƏNDƏSƏ DÜSTURLARI

arazyayınları

Riyaziyyat

Araz yayınları № 5
Abituriyent seriyası № 5

ISBN13 978-9952-433-44-9
ISBN10 9952-433-44-1

Müəlliflər

Araz Kursları araz kursları və Azərbaycan-Türkiyə Özəl Liseylərinin AZƏRBAYCAN-TÜRKİYƏ ÖZƏL LİSEYLƏRİ Riyaziyyat fənni üzrə mütəxəssis-müəllim heyə

Çapa hazırlıq
Araz yayınları Dizayn & Qrafik

Cəbr- Həndəsə düsturları (Abituriyentlər üçün hazırlıq vəsaiti)

Təkmilləşdirilmiş və əlavələr edilmiş II nəşr.

arazyayınları

Ünvan: Nəsimi rayonu, A.Salamzadə küçəsi, 28;
Telefon: 530-10-20 (Pbx)
www.arazyayinlari.az, www.araz.edu.az

Ön söz

Araz Kursları uzun illərdir ki, abituriyentləri qəbul imtahanlarına hazırlaşdırır. Bu istiqamətdə Araz Kurslarının çox ciddi təcrübəsi var. Kurslarımızda çalışan təcrübəli müəllimlər bu istiqamətdə ixtisaslaşmış və sagirdləri daha effektiv şəkildə qəbul imtahanlarına hazırlaşdırırlar.

Əziz abituriyentlər! Sizə təqdim etdiyimiz "Cəbr-Həndəsə düsturları kitabı bizim təcrübəli müəllimlərimizin əməyinin nəticəsidir. Bu kitab düsturların daha dərindən öyrənilməsində sizə köməkçi vəsait olacaqdır. Kitabda Cəbr və Həndəsə fənninə aid bütün düsturlar və düsturların misallarla izahı verilmişdir.

Biz inanırıq ki, bu kitab gələcəkdə sizin qəbul imtahanına dərindən hazırlaşmagınıza çox böyük kömək edəcəkdir.

CƏBR

araz yayınları

Ədədlər

Natural ədələr

$N = \{1, 2, 3, 4, ..., n, ...\}$ çoxluğunun hər bir elementinə **natural ədəd** deyilir.

Tam ədələr

$Z = \{... -3, -2, -1, 0, 1, 2, 3, ...\}$ çoxluğunun hər bir elementinə **tam ədəd** deyilir.



Ədəd oxu üzərində hər bir ədəd özündən sağdakı ədəddən kiçik, soldakı ədəddən isə böyükdür.

Rasional ədədlər

$Q = \left\{ \frac{a}{b}, a \in Z, b \in N \right\}$ çoxluğunun hər bir elementinə **rasional ədəd** deyilir.

$\frac{3}{2}, -\frac{1}{2}, 3, 0$ və sair ədədlər rasionaldır.

İrrasional ədədlər

Dövrü olmayan sonsuz onluq kəsr şəklində göstərilə bilən ədədlərə **irrasional ədədlər** deyilir və Q' ilə işarə edilir.

Məsələn,

$\pi \approx 3,14159265...$

$e \approx 2,71828182...$

$\sqrt{2} \approx 1,41423562...$

Ədədlərin mərtəbəsi

$\overline{abcd}$ → dörd rəqəmli ədəd
- d — təkliklər mərtəbəsi
- c — onluqlar mərtəbəsi
- b — yüzlüklər mərtəbəsi
- a — minliklər mərtəbəsi

$$\overline{abcd} = a \cdot 10^3 + b \cdot 10^2 + c \cdot 10 + d$$

Misal: $\overline{abb}+\overline{bcc}+\overline{caa}=1332$ isə, a+b+c=?

Həlli:

$\overline{abb}=100a+10b+b=100a+11b$

$\overline{bcc}=100b+10c+c=100b+11c$

$\overline{caa}=100c+10a+a=100c+11a$

$\overline{abb}+\overline{bcc}+\overline{caa}=111(a+b+c)$

$$1332=111(a+b+c)$$

$$a+b+c=12$$

Misal: a, b, c - birrəqəmli ədədlərdir. $\overline{ab}+\overline{bc}+\overline{ca}=165$ isə, a+b+c=?

Həlli:

$$\left.\begin{aligned}\overline{ab}&=10a+b\\ \overline{bc}&=10b+c\\ \overline{ca}&=10c+a\end{aligned}\right\}\Rightarrow \overline{ab}+\overline{bc}+\overline{ca}=11(a+b+c)$$

165=11(a+b+c)

a+b+c=15

a və b həqiqi ədədləri, üçün aşağıdakıları yazmaq olar.

1. a+b=b+a
2. a+(b+c)=(a+b)+c
3. a+0=a
4. a+(-a)=0
5. a-(-b)=a+b
6. a+(-b)=a-b
7. $a\cdot b=b\cdot a$
8. $a\cdot(b\cdot c)=(a\cdot b)\cdot c$
9. $a\cdot(b+c)=a\cdot b+a\cdot c$
10. $a\cdot 1=a$

Tək və cüt ədədlər

2-yə tam bölünən natural ədədlərə **cüt ədədlər** deyilir. Cüt ədədlər çoxluğu $\{2n;\ n\in N\}$ şəklində göstərilir. Məsələn: 2; 4; 10; 18 cüt ədədlərdir.

Tək ədədlər çoxluğu $\{2n-1;\ n\in N\}$ şəklində göstərilir. Məsələn: 1; 3; 15; 17 tək ədədlərdir.

Tək və cüt ədədlər üçün aşağıdakı bərabərliklər doğrudur.

$T+T\to C$	$T\cdot T\to T$	$T^n\to T (n\in N)$
$T+C\to T$	$T\cdot C\to C$	$C^n\to C (n\in N)$
$C+C\to C$	$C\cdot C\to C$	

$2^5+3^9\to(C+T)\to$ Tək ədəd

$3^{16}+5^{13}\to(T+T)\to$ Cüt ədəd

$5^{18}-3^{17}+2^{14}\to(T-T+C)\to$ Cüt ədəd

$5^{12}-3^{12}\to(T-T)\to$ Cüt ədəd

$3^{144}\to$ Tək ədəd

$6^{121}\to$ Cüt ədəd

Sadə ədədlər

Yalnız vahidə və özünə bölünən 1-dən böyük ədədlərə **sadə ədədlər** deyilir.

✔ Ən kiçik sadə ədəd 2-dir. Sadə ədədlərin ümumi düsturu yoxdur.

2; 3; 5; 7; 11; 13; ... sadə ədədlərdir.

Mürəkkəb ədədlər

Üç və daha çox böləni olan natural ədədlərə **mürəkkəb ədədlər** deyilir.

4; 6; 8; 9; 10; ... mürəkkəb ədədlərdir.

Qeyd: 1 ədədi nə sadədir, nə də mürəkkəb.

Mürəkkəb ədədin sadə vuruqlara ayrılışı.

Ədədin müsbət bölənlərindən sadə olanları bu ədədin **sadə vuruqları** adlanır.

Məsələn, $120=2^3\cdot3\cdot5$ yazmaq olar. 120 ədədinin müxtəlif sadə vuruqları 2; 3; 5-dir. 120 ədədin 5 sadə vuruğu vardır.

- $72=2^3\cdot3^2$ olduğundan 72 ədədinin müxtəlif sadə vuruqları 2 və 3-dür. 72-nin 5 sadə vuruğu vardır.

ƏBOB (Ən Böyük Ortaq Bölən) və ƏKOB (Ən Kiçik Ortaq Bölünən)

a və b natural ədədlərinin bölündüyü ən böyük natural ədədə bu ədədlərin **ən böyük ortaq böləni** deyilir və ƏBOB(a, b) kimi işarə olunur.

a və b natural ədədlərinə bölünən ən kiçik natural ədədə bu ədədlərin **ən kiçik ortaq bölünəni** deyilir və ƏKOB(a, b) kimi işarə olunur.

24 və 36 ədədlərinin ƏBOB və ƏKOB-nu tapaq:

$24 = 2^3 \cdot 3$ və $36 = 2^2 \cdot 3^2$ olduğundan,

ƏBOB $(24,36) = 2^2 \cdot 3$ (ortaq sadə vuruqların hasili) = 12;

ƏKOB $(24,36) = 2^3 \cdot 3^2$ (ortaq və ortaq olmayan sadə vuruqların hasili) = 72 alınar.

✔ $a \cdot b = \text{ƏBOB}(a,b) \cdot \text{ƏKOB}(a,b)$

✔ $\text{ƏBOB}(a,b) = \sqrt{\dfrac{a \cdot b}{c}}$

✔ $\text{ƏKOB}(a,b) = \text{ƏBOB}(a,b) \cdot c$

✔ $\text{ƏKOB}(a,b) \le a \cdot b$

Burada c ədədi a və b ədədlərinin **ortaq olmayan sadə vuruqlarının hasilidir**.

Ortaq bölünənləri yalnız vahidə bərabər olan natural ədədlər cütünə **qarşılıqlı sadə ədədlər** deyilir.

Misal: (25; 37), (18; 49) və s.

✔ Ədəd oxu üzərində ardıcıl yerləşən ixtiyari natural ədədlər cütü bir-biriləri ilə qarşılıqlı sadədir.

Misal: (106; 107), (86; 87)və s.

a və b qarşılıqlı sadə ədədlər olarsa,

ƏBOB(a, b)=1; $\text{ƏKOB}(a,b) = a \cdot b$

Rasional ədədlərin ƏBOB və ƏKOB-nun tapılması

$$\text{ƏBOB}\left(\frac{a}{b},\frac{c}{d}\right) = \frac{\text{ƏBOB}(a \cdot d, c \cdot b)}{\text{ƏKOB}(b,d)}$$

Misal:

$$\text{ƏBOB}\left(\frac{3}{5},\frac{4}{7}\right) = \frac{\text{ƏBOB}(3 \cdot 7, 5 \cdot 4)}{\text{ƏKOB}(5,7)} = \frac{1}{35}$$

$$\text{ƏKOB}\left(\frac{a}{b},\frac{c}{d}\right) = \frac{\text{ƏKOB}(a,c)}{\text{ƏBOB}(b,d)}$$

Misal:

$$\text{ƏKOB}\left(\frac{4}{15},\frac{5}{3}\right) = \frac{\text{ƏKOB}(4,5)}{\text{ƏBOB}(15,3)} = \frac{20}{3}$$

Tam ədədlərdə Bölən - Qalıq əlaqəsi

A, B, x, K_1, K_2 tam ədədlər və $n \in N$-dir.
A-nın x-ə bölünməsindən alınan qalıq K_1 və
B-nin x-ə bölünməsindən alınan qalıq K_2 olsun. Onda,

- $A \cdot B$-nin x-ə bölünməsindən alınan qalıq $K_1 \cdot K_2$,
- $A \pm B$-nin x-ə bölünməsindən alınan qalıq $K_1 \pm K_2$,
- A^n-nin x-ə bölünməsindən alınan qalıq K_1^n olar.

Tam bölünmə əlamətləri

✓ 2: Bütün cüt ədədlər 2-yə tam bölünür.
✓ 3: Rəqəmləri cəmi 3-ə bölünən bütün ədədlər 3-ə tam bölünür.
✓ 5: Sonuncu rəqəmi 0 və ya 5 olan ədədlər 5-ə bölünür.
✓ 7: $(\overline{a_n.......a_4a_3a_2a_1a_0})$ $n+1$ rəqəmli ədədin 7-yə tam bölünməsi üçün aşağıdakı şərt ödənilməlidir.

- $(1a_0 + 3a_1 + 2a_2)$-$(1a_3 + 3a_4 + 2a_5) + ... = 0$ və ya 7k olmalıdır.

Misal:
4538625 ədədinin 7-yə bölünməsini isbat edək.
$(5 \cdot 1+3 \cdot 2+2 \cdot 6)-(8 \cdot 1+3 \cdot 3 + 2 \cdot 5) + 4 \cdot 1 =(5+6+12)-(8+9+10) + 4 = =27-27 = 0$
Deməli, 4538625 ədədi 7-yə tam bölünür.

✓ **11**: $(\overline{a_n.......a_4a_3a_2a_1a_0})$ $n+1$ rəqəmli ədədin 11-ə tam bölünməsi üçün aşağıdakı şərt ödənməlidir:
$(a_0-a_1+a_2-a_3+a_4-a_5+....) =0$ və ya 11k olmalıdır.
Misal:
136173829 ədədinin 11-ə bölünməsini isbat edək.
$(9+8+7+6+1)-(2+3+1+3) = 22$
22 ədədi 11-in bölünəni olduğuna görə 136173829 ədədi 11-ə tam bölünər.

✓ **4**: Bir ədədin sonuncu iki rəqəmi sıfırla qurtararsa və ya bu iki rəqəmin əmələ gətirdiyi ədəd 4-ə qalıqsız bölünərsə, onda verilmiş ədəd 4-ə tam bölünər.
✓ **8**: Bir ədədin sonuncu üç rəqəmi sıfırla qurtararsa və ya sonuncu üç rəqəmin əmələ gətirdiyi ədəd 8-ə tam bölünərsə, onda verilmiş ədəd 8-ə bölünər.
✓ **9**: Rəqəmləri cəmi 9-a bölünən ədəd 9-a tam bölünür.
✓ **10**: Sonuncu rəqəmi "0" olan ədəd 10-a tam bölünür.

✓ **6**: 3-ə və 2-yə tam bölünən ədəd 6-ya tam bölünür.
✓ **12**: 3-ə və 4-ə tam bölünən ədəd 12-yə tam bölünür.
✓ **18**: 9-a və 2-yə tam bölünən ədəd 18-ə tam bölünür.
✓ **36**: 9-a və 4-ə tam bölünən ədəd 36-ya tam bölünür.
✓ **84**: 12-yə və 7-yə tam bölünən ədəd 84-ə tam bölünür.

Əsas cəm düsturu

Əgər **r** ilk hədd, **n** son hədd, **x** artım olarsa, aşağıdakı cəm düsturu doğrudur.

$$r+(r+x)+(r+2x)+ .... + n = \frac{(n+r)(n-r+x)}{2x}$$

Misal:
$7 + 14 + 21 + ... + 112 = ?$
$r = 7, n = 112, x = 7$

$$7 + 14 + 21 + ... + 112 = \frac{(112+7)\cdot(112-7+7)}{2\cdot 7} = \frac{119\cdot 112}{14} = 952$$

Natural ədədlər üçün bəzi düsturlar

$A = x^m \cdot y^n \cdot z^p$, x, y, z - sadə vuruqlar, $m, n, p \in N$ olarsa, onda

✓ **A-nın müsbət bölənlərinin sayı**
$T = (m+1)\cdot(n+1)\cdot(p+1)$ düsturu ilə tapılır.
Bir ədədin müsbət tam bölənləri qədər mənfi tam bölənləri var. Buna görə bütün tam bölənlərin cəmi "0"-dır.

Misal:

1. 600 ədədinin müsbət tam bölənlərinin sayını tapın.
   $600 = 2^3 \cdot 3^1 \cdot 5^2$
   $T = (m+1)\cdot(n+1)\cdot(p+1)$
   $T = (3+1)\cdot(1+1)\cdot(2+1) = 24$

2. 72 ədədinin müsbət tam bölənlərinin sayını tapın.
   $72 = 2^3 \cdot 3^2$
   $T = (3+1)\cdot(2+1) = 12$

1, 2, 3, 4, 6, 8, 9, 12, 18, 24, 36, 72 müsbət tam bölənlərdir.

Müsbət bir ədəddən kiçik olmaqla bu ədəd ilə qarşılıqlı sadə olan ədədlərin sayının tapılması qaydası

$A = a^m \cdot b^n \cdot c^k$ ədədindən kiçik və A ilə qarşılıqlı sadə olan ədədlərin sayı P olarsa,

$$P = a^m \cdot b^n \cdot c^k \cdot \left(1-\frac{1}{a}\right)\cdot\left(1-\frac{1}{b}\right)\cdot\left(1-\frac{1}{c}\right)$$

Misal:
48-dən kiçik və 48 ilə qarşılıqlı sadə olan neçə natural ədəd var?

$48 = 2^4 \cdot 3$

$P=2^4\cdot 3\cdot\left(1-\frac{1}{2}\right)\cdot\left(1-\frac{1}{3}\right)=48\cdot\frac{1}{2}\cdot\frac{2}{3}=16$

Bu ədədlər aşağıdakılardır:
47; 43; 41; 37; 35; 31; 29; 25; 23; 19; 17; 13; 11; 7; 5; 1

Bəzi cəm düsturları

1. $1+2+3+...+n=\frac{n(n+1)}{2}$

Misal:

$1+2+3+.....+20=\frac{20(20+1)}{2}=210$

2. $2+4+6+....+2n=n(n+1)$

Misal:
$2+4+6+.....+50=25\cdot(25+1)=650$
$2n=50,\ n=25$

3. $1^2+2^2+3^2+....+n^2=\frac{n(n+1)(2n+1)}{6}$

4. $1^3+2^3+3^3+....+n^3=\left(\frac{n(n+1)}{2}\right)^2$

Misal:

$1^3+2^3+3^3+...+10^3=\left(\frac{10\cdot 11}{2}\right)^2=3025$

5. $1\cdot 2+2\cdot 3+3\cdot 4+...+n(n+1)=\frac{n(n+1)(n+2)}{3}$

6. $\frac{1}{1\cdot 2}+\frac{1}{2\cdot 3}+....\frac{1}{n(n+1)}=\frac{n}{n+1}$

7. $1+r+r^2+r^3+r^{n-1}=\frac{1-r^n}{1-r}$

Misal:

$1+2+2^2+2^3+....+2^7=\frac{1-2^8}{1-2}=255$

8. $3+6+9+....+3n=\frac{3n(n+1)}{2}$

9. $1+4+7+....+(3n-2)=\frac{n(3n-1)}{2}$

10. $1+3+5+...+(2n-1)=n^2$

Misal:
$1+3+5+....+21=n^2=(11)^2=121$
$2n-1=21$
$2n=22$
$n=11$

11. $1^2+3^2+5^2+....+(2n-1)^2=\frac{n(4n^2-1)}{3}$

12. $1^3+3^3+5^3+....+(2n-1)^3=n^2\cdot(2n^2-1)$

13. $\frac{1}{1\cdot 3}+\frac{1}{3\cdot 5}+\frac{1}{5\cdot 7}+....+\frac{1}{(2n-1)(2n+1)}=\frac{n}{2n+1}$

14. $\frac{1}{1\cdot 4}+\frac{1}{4\cdot 7}+\frac{1}{7\cdot 10}+....+\frac{1}{(3n-2)(3n+1)}=\frac{n}{3n+1}$

15. $2+5+8+11+.....+3n-1=\frac{n(3n+1)}{2}$

16. $1+7+13+19+.....+6n-5=n(3n-2)$

17. $1^2 - 2^2 + 3^2 - 4^2 + \dots + (-1)^{n-1}\cdot n^2 = (-1)^{n-1}\cdot\frac{n(n+1)}{2}$

18. $2^1\cdot 2 + 2^2\cdot 3 + 2^3\cdot 4 + \dots + 2^n(n+1) = n\cdot 2^{n+1}$

19. $1 + 3 + 3^2 + \dots 3^{n-1} = \frac{3^n - 1}{2}$

20. $2 + 5 + 13 + \dots + (2^{n-1} + 3^{n-1}) = 2^n - 1 + \frac{3^n - 1}{2}$

21. $\frac{5}{1\cdot 2\cdot 3} + \frac{6}{2\cdot 3\cdot 4} + \dots + \frac{n+4}{n(n+1)(n+2)} = \frac{n(3n+7)}{2(n+1)\cdot(n+2)}$

22. $\frac{1^2}{1\cdot 3} + \frac{2^2}{3\cdot 5} + \dots + \frac{3^2}{5\cdot 7} + \dots + \frac{n^2}{(2n-1)\cdot(2n+1)} = \frac{n(n+1)}{2(2n+1)}$

23. $\cos a + \cos 3a + \dots + \cos((2n-1)a) = \frac{\sin(2na)}{2\sin a}$

24. $\sin a + \sin 2a + \dots + \sin(na) = \dfrac{\cos\frac{a}{2} - \cos\left(n+\frac{1}{2}\right)a}{2\sin\frac{a}{2}}$

25. $\cos a + \cos 2a + \dots + \cos(na) = \dfrac{\sin\frac{na}{2}\cdot\cos\left(\frac{n+1}{2}\right)a}{\sin\frac{a}{2}}$

Rasional ədədlər üzərində əməllər

Əməllər sırası

1. Mötərizələrin daxilindəki əməllər yerinə yetirilir.
2. Qüvvətə yüksəltmə əməli yerinə yetirilir.
3. Vurma-bölmə yerinə yetirilir.
4. Toplama-çıxma yerinə yetirilir.

- ***Müsbət və mənfi ədədlərin vurulması***

$(+)\cdot(+) = (+)$, $(+):(+) = (+)$, $(+)\cdot(-) = (-)$, $(+):(-) = (-)$

$(-)\cdot(+) = (-)$, $(-):(+) = (-)$, $(-)\cdot(-) = (+)$, $(-):(-) = (+)$

Məsələn:
$(-4)\cdot 3 = -12$ $(-4)\cdot(-3) = 12$ $(-8):4 = -2$ $(-8):(-4) = 2$

Adi və onluq kəsrlər

$m, n \in N$ olarsa, $\frac{m}{n}$ şəklində verilən ədədlərə **adi kəsrlər** deyilir: $\frac{1}{2}, \frac{2}{5}, \frac{13}{8}$ və s.

Surəti məxrəcindən kiçik olan kəsrə **düzgün kəsr** deyilir: $\frac{3}{7}, \frac{5}{8}, \frac{3}{4}$ və s.

Düzgün kəsrlər üçün $\frac{m}{n} < 1$ şərti ödənilir.

Surəti məxrəcindən böyük və ya ona bərabər olan kəsrə **düzgün olmayan kəsr** deyilir.

Məsələn, $\frac{8}{8}, \frac{9}{5}, \frac{14}{11}$ və s.

Düzgün olmayan kəsrlər üçün $\frac{m}{n} \geq 1$ şərti ödənilir.

Qeyd: Vahid də **düzgün olmayan** kəsrdir.

I. ***Toplama və çıxma***

$\frac{a}{b} \pm \frac{c}{d} = \frac{ad \pm bc}{bd}$,

Məxrəclərin ƏKOB-u tapılır.

$\frac{4}{15} + \frac{7}{10} = \frac{8}{30} + \frac{21}{30} = \frac{29}{30}$

II. ***Vurma***: Məxrəc məxrəcə, surət surətə vurulur.

$\frac{a}{b}\cdot\frac{c}{d} = \frac{ac}{bd}$, $\frac{a}{b}\cdot\frac{c}{d}\cdot\frac{e}{f} = \frac{a\cdot c\cdot e}{b\cdot d\cdot f}$

$\frac{4}{3}\cdot\frac{5}{7}\cdot\frac{9}{13} = \frac{4\cdot 5\cdot \cancel{9}^{3}}{\cancel{3}_{1}\cdot 7\cdot 13} = \frac{60}{91}$

III. *Bölmə:* Birinci kəsr olduğu kimi yazılır ikinci kəsr tərsinə çevrilib vurulur.

$$\frac{a}{b}:\frac{c}{d}=\frac{a}{b}\cdot\frac{d}{c}=\frac{a\cdot d}{b\cdot c} \text{ və ya } \frac{\frac{a}{b}}{\frac{c}{d}}=\frac{a\cdot d}{b\cdot c}$$

$$\frac{4}{7}:\frac{8}{3}=\frac{4}{7}\cdot\frac{3}{8}=\frac{3}{14}$$

Kəsrlərin müqayisəsi

- Məxrəcləri eyni olan iki müsbət kəsrdən surəti böyük olan kəsr böyükdür.
  Misal: $\frac{6}{7}>\frac{5}{7}>\frac{4}{7}$
- Surətləri eyni olan iki kəsrdən məxrəci böyük olan kəsr kiçikdir.
  Misal: $\frac{13}{7}>\frac{13}{8}>\frac{13}{9}$
- Mənfi kəsrlər üçün bu təkliflərin tərsi doğrudur.
- Surət ilə məxrəcinin fərqi eyni olan müsbət düzgün kəsrlərdə surət və məxrəc böyüdükcə kəsrin qiymətı artar.
- $\frac{a}{a+n}$ kəsri , n sabit ikən a böyüdükcə artar.
  Surət ilə məxrəcinin fərqi eyni olan müsbət düzgün olmayan kəsrlərdə surət ilə məxrəc böyüdükcə kəsrin qiyməti azalar. Yəni, $\frac{a+n}{a}$ kəsrində n sabit ikən a artarsa, kəsrin qiyməti azalar.

Məsələn,

$a=\frac{11}{10}$, $b=\frac{101}{100}$, $c=\frac{1001}{1000}$ olarsa; $a>b>c$ alınar.

Dövrü onluq kəsr

Bir rasional ədədin onluq kəsr şəklində yazılışında təkrar olunan rəqəm və ya rəqəmlər qrupu varsa, belə onluq kəsrə *dövrü onluq kəsr* deyilir.

Məsələn, $0,a(bc)=0,a\overline{bcbcbcbc}....=\frac{\overline{abc}-a}{990}$

Cəbr-Həndəsə düsturları

1. $0,(a)=\frac{a}{9}$
2. $0,a(b)=\frac{\overline{ab}-a}{90}$
3. $0,(ab)=\frac{\overline{ab}}{99}$
4. $a,b(c)=a\frac{\overline{bc}-b}{90}$
5. $a,(b)=a\frac{b}{9}$
6. $a,cd(ef)=a\frac{\overline{cdef}-\overline{cd}}{9900}$

Misal:

1. $0,(3)=\frac{3}{9}=\frac{1}{3}$
2. $0,(22)=\frac{22}{99}=\frac{2}{9}$
3. $0,2(1)=\frac{21-2}{90}=\frac{19}{90}$
4. $0,3(21)=\frac{321-3}{990}=\frac{318}{990}=\frac{53}{165}$
5. $3,(4)=3\frac{4}{9}$
6. $4,3(2)=4\frac{32-3}{90}=4\frac{29}{90}$

Faiz. Nisbət. Tənasüb

✔ Asılı iki kəmiyyətdən birinin artması (azalması) ilə o biri də artarsa (azalarsa), belə asılılığa düz mütənasiblik deyilir. Düz mütənasib kəmiyyətlərin nisbətləri sabitdir.

✔ Asılı iki kəmiyyətdən birinin artması (azalması) ilə o biri azalarsa (artarsa), belə asılılığa tərs mütənasiblik deyilir. Tərs mütənasib kəmiyyətlərin hasilləri sabitdir.

Düz mütənasib



$(k > 0)$

Tərs mütənasib



$(k > 0)$

$\frac{a}{b}$ kəsrinə a-nın b-yə nisbəti deyilir $(b \neq 0)$

$\frac{a}{b}$ və $\frac{c}{d}$ kimi iki nisbətin bərabərliyinə *tənasüb* deyilir.

✔ Tənasübün xassələri

$\frac{a}{b} = \frac{c}{d}$ tənasübü üçün aşağıdakı xassələr doğrudur:

1. b və c-yə orta hədlər, a və d-yə kənar hədlər deyilir.

$$a : \underbrace{b = c}_{\text{orta}} : d \quad (a, d - \text{kənar})$$

2. $a \cdot d = b \cdot c$ (orta və kənar hədd hasilləri bərabərdir)

3. $\frac{a}{c} = \frac{b}{d}$ (orta hədlər yerini dəyişir)

4. $\frac{d}{b} = \frac{c}{a}$ (kənar hədlər yerini dəyişir)

5. $\frac{ma}{mb} = \frac{nc}{nd}$ $\quad (m, n \neq 0)$

Cəbr-Həndəsə düsturları

6. $\frac{a:m}{b:m} = \frac{c:n}{d:n}$ $\quad (m, n \neq 0)$

7. $\frac{ma \pm nc}{mb \pm nd} = \frac{a}{b} = \frac{c}{d}$ $\quad (m, n \neq 0)$

8. $\frac{a+b}{b} = \frac{c+d}{d}$ və ya $\frac{a-b}{b} = \frac{c-d}{d}$

9. $\frac{a+b}{a-b} = \frac{c+d}{c-d}$

10. $\frac{a^2}{b^2} = \frac{c^2}{d^2} = k^2 \Rightarrow \frac{a^2+c^2}{b^2+d^2} = k^2$

11. $\frac{a \cdot c}{b \cdot d} = k^2$

Ədədin yüzdə bir hissəsinə faiz deyilir və % kimi yazılır.
$0,01 = 1\%$, $\quad 0,25 = 25\%$

Misal:

- 30 ədədinin 20%-i $30 \cdot \frac{20\%}{100\%} = 6$ olar.
- 3,6 ədədinin 20% -i $3,6 \cdot \frac{20\%}{100\%} = \frac{72}{100} = 0,72$ olar.
- 6 ədədinin 6%-i $6 \cdot \frac{6\%}{100\%} = \frac{36}{100} = 0,36$ olur.

2. Ədədi faizlə göstərmək üçün $a = a \cdot 100\%$ bərabərliyindən istifadə edilir.

Misal:
5 ədədini faizlə göstərin.
Həlli:
$5 \cdot 100\% = 500\%$

3. Faizi ədədlə göstərmək üçün $b\% = b \cdot 0,01$ bərabərliyindən istifadə edilir:
$15\% = 15 \cdot 0,01 = 0,15$

4. a ədədinin p%-i $\frac{a \cdot p\%}{100\%}$ düsturu ilə hesablanır.

5. p%-i b olan ədədi tapmaq üçün $\frac{b \cdot 100\%}{p\%}$ düsturundan istifadə edilir.

Misal:
6%-i 12 olan ədədi tapın.
Həlli:
Axtarılan ədəd x olsun.

$$x \cdot 6\% = 12 \Rightarrow x \cdot \frac{6}{100} = 12$$

$$6x = 1200 \Rightarrow x = 200$$ və ya $x = \frac{12 \cdot 100\%}{6\%} = 200$ kimi yazmaq olar.

Misal:
Bir ədədin 45% ilə 40%-inin fərqi 12,5 olarsa, bu ədədi tapın.
$0{,}45x - 0{,}4x = 12{,}5$
$x = 250$

6. Bir ədədin başqa bir ədədə bölünməsindən alınan qismətə **nisbət** deyilir. a:b və ya $\frac{a}{b}$ kimi yazılır.

Misal:
Kvadratın tərəfini 20% artırdıqda onun sahəsi neçə faiz artar?



$S(ABCD) = S_1$; $S(KMLN) = S_2$
$S_1 = a^2 = 10^2 = 100$ sm

$$b = a + a \cdot 20\% = 10 + 10 \cdot \frac{20}{100} = 12 \text{ sm}$$

$S_2(KLMN) = b^2 = 12^2 = 144$

$$\frac{S_2 - S_1}{S_1} \cdot 100 = 44\%$$

Yəni 44% artır.

7. a ədədinin b-nin neçə faizi olduğunu bilmək üçün $\frac{a}{b} \cdot 100\%$ düsturundan istifadə olunur.

Misal:
3 ədədi 4 ədədinin neçə faizini təşkil edir?

$$\frac{3}{4} \cdot 100\% = 0{,}75 \cdot 100\% = 75\%$$

Misal:
16 ədədi 20 ədədinin neçə faizini təşkil edir?

$$\frac{16}{20} \cdot 100\% = \frac{4}{5} \cdot 100\% = 0{,}8 \cdot 100\% = 80\ \%$$

8. İldə p% gəlir verən kassaya qoyulmuş a manat pulun, n ildən sonra neçə manat olduğunu $a \cdot \left(1 + \frac{p}{100}\right)^n$ düsturu ilə hesablamaq olar. Bu, **mürəkkəb faiz düsturudur**.

Üzərində başlanğıc nöqtə, istiqamət və ölçü vahidi qeyd edilmiş düz xəttə əd... **oxu** deyilir. Ədəd oxu üzərində göstərilə bilən hər bir ədədə **həqiqi ədəd** deyi... Həqiqi ədədlər çoxluğu $R = Q \cup Q'$ ilə işarə edilir.

Həqiqi ədədin kəsr hissəsi: $\{x\} = x - [x]$ burada $[x]$ - ədədin tam hissəsidir.

- Həqiqi ədədin qüvvəti

$(+)^n = (+)$; $(-)^{2n} = (+)$; $(-)^{2n-1} = (-)$ $(n \in N)$

Müsbət ədədlərin bütün qüvvətləri müsbətdir. Mənfi ədədlərin cüt qüvv... ***müsbət***, tək qüvvəti isə ***mənfidir***.

- Həqiqi ədədlərdə aşağıdakı bərabərlik xassələri doğrudur:

I. Bərabərliyin hər iki tərəfinə eyni bir ədədi əlavə etsək və ya çıxsaq bərabərl... dəyişməz.

$a = b \quad \Rightarrow a \pm c = b \pm c$

II. Bərabərliyin hər tərəfini eyni ədədə vursaq, bərabərlik dəyişməz.

$a = b \quad \Rightarrow a \cdot c = b \cdot c$

III. Bərabərliyin hər tərəfini sıfırdan fərqli ədədə bölsək, bərabərlik dəyişməz.

$a = b \Rightarrow a : c = b : c \quad (c \neq 0)$

IV. Bərabərliyin hər tərəfini qüvvətə yüksəltdikdə, bərabərlik dəyişməz.

$a = b \Rightarrow a^n = b^n \ (n \in R)$

$a = b \Rightarrow \sqrt[n]{a} = \sqrt[n]{b} \qquad (n > 1, n \in Z)$

IV. Bərabərliklər üzərində toplama, çıxma, vurma və bölmə əməlləri aşağıdakı kimidir:

$$\frac{\begin{matrix} a = b \\ c = d \end{matrix}}{a \pm c = b \pm d} \qquad \frac{\begin{matrix} a = b \\ c = d \end{matrix}}{a \cdot c = b \cdot d} \qquad \frac{\begin{matrix} a = b \\ c = d \end{matrix}}{a : c = b : d}$$

$(c \neq 0, d \neq 0)$

Mütləq qiymət

Ədəd oxunda x həqiqi ədədinə qarşı qoyulan nöqtənin başlanğıc nöqtədən uzaqlığına x-ın **mütləq qiyməti** deyilir və $|x|$ ilə işarə edilir.

$$|x| = \begin{cases} x, x > 0 \\ 0, x = 0 \\ -x, x < 0 \end{cases}$$



1. $\forall n \in Z^+$ üçün $\sqrt[2n]{x^{2n}} = |x|$

2. $x < |x| \Rightarrow x < 0$
$x = |x| \Rightarrow x \geq 0$

3. $|x| = |-x|$
$|x - y| = |y - x|$
$|x \cdot y| = |x| \cdot |y| (y \neq 0)$

4. $a \in R^+$ və $|f(x)| = a$ isə, $f(x) = a$ və ya $f(x) = -a$

Misal:
$|2x - 3| = 5$
$2x - 3 = 5 \qquad 2x - 3 = -5$
$x = 4 \qquad x = -1$
Cavab $\{-1, 4\}$

5. $|f(x)| \leq a \quad \Rightarrow -a \leq f(x) \leq a$

Misal:
$|3x - 4| \leq 5$ olarsa,

$-5 \leq 3x - 4 \leq 5 \quad \Rightarrow \quad -\frac{1}{3} \leq x \leq 3$

6. $|f(x)| \geq a$ isə $f(x) \geq a$ və ya $f(x) \leq -a$

Misal:
$|4x + 1| \geq 3$
$4x + 1 \geq 3 \qquad 4x + 1 \leq -3$
$4x \geq 2 \qquad 4x \leq -4$
$x \geq 0{,}5 \qquad x \leq -1$
$x \in (-\infty; -1] \cup [0{,}5; +\infty)$

7. $A=|x-a|+|x-b|$ ifadəsi maksimum qiymətini $x=a$ və ya $x=b$ qiymətində alır.
$x = a$ üçün $\max(A) = |a - b|$
$x = b$ üçün $\max(A) = |b - a|$

8. $B = |x - a| - |x - b|$ ifadəsi ən kiçik qiymətini $x = a$ olanda, ən böyük qiymətini isə $x = b$ olanda alır.
$x = a$ üçün $\min(B) = -|a - b|$
$x = b$ üçün $\max(B) = |b - a|$

9. $|x-b| = |x-a|$ olarsa, $x = \frac{a+b}{2}$. Burada $a \neq b$ şərti ödənilməlidir.

Ədədi orta (Ə.O.)

1. İki ədədin ədədi ortası:

$$A = \frac{x_1 + x_2}{2}$$

Misal:
8 və 10 ədədlərinin ədədi ortasını tapın.

$$\text{Ə.O.} = \frac{8+10}{2} = 9$$

2. Üç ədədin ədədi ortası:

$$A = \frac{x_1 + x_2 + x_3}{3}$$

Misal:
10, 12, -6 ədədlərinin ədədi ortasını tapın.

$$\text{Ə.O} = \frac{10+12-6}{3} = \frac{16}{3}$$

3. n ədədinin ədədi ortası:

$$A = \frac{x_1 + x_2 ... + x_n}{n}$$

Həndəsi orta (G)

1. İki ədədin həndəsi ortası:

$$G = \sqrt{x_1 \cdot x_2}$$

Misal:
9 və 4 ədədlərinin həndəsi ortasını tapın.

$$G = \sqrt{9 \cdot 4} = \sqrt{36} = 6$$

2. Üç ədədin həndəsi ortası:

$$G = \sqrt[3]{x_1 \cdot x_2 \cdot x_3}$$

Misal:
3, 9, 1 ədədlərinin həndəsi ortasını tapın.

$$G = \sqrt[3]{1 \cdot 3 \cdot 9} = \sqrt[3]{27} = 3$$

3. n ədədin həndəsi ortası:

$$G = \sqrt[n]{x_1 \cdot x_2 \cdot \dots \cdot x_n}$$

Çoxhədlilərin vuruqlara ayrılması

1. $x^2 - y^2 = (x - y)(x + y)$

Misal:
- ✓ $9x^2 - 4y^2 = (3x - 2y)(3x + 2y)$
- ✓ $a^2 - 9 = (a - 3)(a + 3)$

$a^2 - b = \left(a - \sqrt{b}\right)\cdot\left(a + \sqrt{b}\right)$

Misal:
- ✓ $a^2 - 3 = \left(a - \sqrt{3}\right)\cdot\left(a + \sqrt{3}\right)$

2. $x^3 - y^3 = (x - y)(x^2 + xy + y^2)$

3. $x^3 + y^3 = (x + y)(x^2 - xy + y^2)$

Misal:
- ✓ $27 - a^3 = (3)^3 - a^3 = (3 - a)(9 + 3a + a^2)$
- ✓ $8y^3 - 27 = (2y)^3 - (3)^3 = (2y - 3)(4y^2 + 6y + 9)$
- ✓ $x^3y^3z^3 - 1 = (x \cdot y \cdot z - 1)(x^2y^2z^2 + xyz + 1)$
- ✓ $64a^3 - 125b^3 = (4a - 5b)(16a^2 + 20ab + 25b^2)$

$x^5 - y^5 = (x - y)\cdot(x^4 + x^3y + x^2y^2 + xy^3 + y^4)$
$x^5 + y^5 = (x + y)\cdot(x^4 - x^3y + x^2y^2 - xy^3 + y^4)$
$x^8 - y^8 = (x - y)\cdot(x^7 + x^6y + x^5y^2 + x^4y^3 + x^3y^4 + x^2y^5 + xy^6 + y^7)$

Nəticə:

$x^n - y^n = (x - y)(x^{n-1} + x^{n-2}y + \ldots + xy^{n-2} + y^{n-1})$
n - təkdirsə $x^n + y^n = (x + y)(x^{n-1} - x^{n-2}y + \ldots - xy^{n-2} + y^{n-1})$
$x^2 + (m + n)x + m\cdot n = (x + m)(x + n)$
$x^2 - (m + n)x + m\cdot n = (x - m)(x - n)$
$x^2 + (m - n)x - m\cdot n = (x + m)(x - n)$

Misal:
- ✓ $x^2 + 11x + 24 = (x + 3)(x + 8)$
- ✓ $x^2 - 6x - 27 = (x - 9)(x + 3)$
- ✓ $x^2 + 8x - 33 = (x + 11)(x - 3)$
- ✓ $x^2 + 8x + 12 = (x + 2)(x + 6)$

4. $(a + b)^2 = a^2 + 2ab + b^2$

Misal:
- ✓ $(3x + 2y)^2 = 9x^2 + 12xy + 4y^2$

5. $(a - b)^2 = a^2 - 2ab + b^2$
6. $(a+b+c)^2 = a^2 + b^2 + c^2 + 2ab + 2ac + 2bc$
7. $(a + b)^3 = a^3 + 3a^2b + 3ab^2 + b^3$
8. $(a - b)^3 = a^3 - 3a^2b + 3ab^2 - b^3$
9. $ax + bx + ay + by = x(a + b) + y(a + b) = (a + b)(x + y)$

Misal:
- ✓ $6a^2 + 3ab - 2ax - xb$
  $3a(2a + b) - x(2a + b) = (2a + b)(3a - x)$
  $a^4 + 7a^2 + 16$ ifadəsini vuruqlara ayırın.
- ✓ $a^4 + 7a^2 + 16 + a^2 - a^2 = a^4 + 8a^2 + 16 - a^2 = (a^2 + 4)^2 - a^2 =$
  $= (a^2 + 4 - a)(a^2 + 4 + a) = (a^2 - a + 4)(a^2 + a + 4)$

10. $(a \pm b)^n$ - nin açılışı
n=0 ....$(a \pm b)^0$ ....1..................
n=1 ....$(a \pm b)^1$ ....1.....1...............
n=2 ....$(a \pm b)^2$ ....1.....2.....1...........
n=3 ....$(a \pm b)^3$ ....1....3.....3....1..........
n=4 ....$(a \pm b)^4$ .....1....4.....6.....4.....1.....
n=5 ....$(a \pm b)^5$ ....1..5....10....10....5....1...
$(a+b)^5 = a^5 + 5a^4b + 10a^3b^2 + 10a^2b^3 + 5ab^4 + b^5$
$(a - b)^6 = a^6 - 6a^5b + 15a^4b^2 - 20a^3b^3 + 15a^2b^4 - 6ab^5 + b^6$

✓ *Bəzi əhəmiyyətli çevirmələr*

$a^2 + b^2 = (a + b)^2 - 2ab$

$a^2 + b^2 = (a - b)^2 + 2ab$

$(a + b)^2 = (a - b)^2 + 4ab$

$a^3 + b^3 = (a + b)^3 - 3ab(a + b)$

$a^3 - b^3 = (a - b)^3 + 3ab(a - b)$

Çoxhədlilər

$n \in N$ və $a_0, a_1, a_2, ..., a_n \in R$ olmaqla $P(x)=a_nx^n+a_{n-1}x^{n-1}+a_{n-2}x^{n-2}...+a_1x+a_0$ ifadəsinə n-dərəcəli həqiqi, əmsallı *çoxhədli* deyilir.

✔ $P(x) = a_nx^n + a_{n-1}x^{n-1}+ a_2x^{n-2}+ ....+ a_1x + a_0$ ifadəsində, $a_n, a_{n-1}, ..., a_0$ çoxhədlinin əmsalları;

n - çoxhədlinin dərəcəsi
a_n - çoxhədlinin ən böyük dərəcəsinin əmsalı,
a_0 - çoxhədlinin sərbəst həddidir.

Misal:

✔ $P(x) = 6x^5 + 3x^3 - 6x + 7$
Çoxhədlisinin dərəcəsi 5,
Sərbəst həddi 7-dir.

✔ $P(x,y) = 7x^6y^2 + 6x^3y^7 + 4x^2y - 12$
Çoxhədlisinin dərəcəsi $(3 + 7) = 10$,
Sərbəst həddi (-12)-dir.

Misal: $\left(\frac{3}{2}a^2b^4\right)^4$ birhədlisinin qüvvəti ilə əmsalının hasilini tapın.

✔ $\left(\frac{3}{2}a^2b^4\right)^4 = \frac{81}{16}a^8b^{16}$

Qüvvəti $(16 + 8) = 24$ Əmsalı $\frac{81}{16}$

✔ $\frac{81}{16} \cdot 24 = \frac{243}{2}$ dır.

$P(x)=a_0$ $(a_0 \in R)$ çoxhədlisinə ***sabit çoxhədli*** deyilir. Sabit çoxhədlinin dərəcəsi sıfırdır. $P(x) = a_0x^0$,

✔ Çoxhədlilərin tək qüvvətli əmsalları cəmi $P_T = \frac{P(1)-P(-1)}{2}$, cüt qüvvətləri əmsalları cəmi $P_C = \frac{P(1)+P(-1)}{2}$ düsturu ilə hesablanır.

Sərbəst hədd

Çoxhədlinin sərbəst həddini tapmaq üçün dəyişənə "0" qiymətini vermək lazımdır. Yə'ni P(x)-in sərbəst həddi P(0)-dır.

İki çoxhədlinin bərabərliyi

İki çoxhədli bərabər isə onların eyni qüvvətli əmsalları bərabərdir.
$P(x) = a_nx^n + a_{n-1}x^{n-1} + a_2x^{n-2} + ...+a_1x + a_0$
$Q(x) = b_nx^n+b_{n-1}x^{n-1}+ b_2x^{n-2} + ...+b_1x + b_0$ olsun. Əgər $P(x)=Q(x)$ isə,
$a_n= b_n$, $a_{n-1}=b_{n-1}$, ... $a_1 = b_1$, $a_0 = b_0$-dır.

Çoxhədlilərin toplanması və çıxılması

Çoxhədlilər toplanarkən və çıxılarkən eyni dərəcələrin əmsalları islah olunur.
dər $[P(x)] = m$ dər $[Q(x)] = n$
və $m > n$ isə, dər $[P(x) +Q(x)] = m$ olar.

Çoxhədlilərin vurulması və bölünməsi

Əgər dər $[P(x)] = m$, dər $[Q(x)] = n$ və $m \geq n$ isə, onda *dər* $[P(x) : Q(x)] = m\text{-}n$ olar. P(x) çoxhədlisini Q(x) çoxhədlisinə böldükdə natamam qismət R(x), qalıq K(x) olarsa, onda $P(x) = Q(x)\cdot R(x) + K(x)$ yazmaq olar. Bu halda aşağıdakı bərabərsizliklər doğrudur.

dər $[P(x)] \geq$ dər $[Q(x)] >$ dər $[K(x)]$
dər $[P(x)] \geq$ dər $[R(x)]$
dər $[P(x)] =$ dər $[Q(x)] +$ dər $[R(x)]$

Klassik Bölmə

Misal:

$$
\begin{array}{l|l}
x^4 - 3x^3 + 2 & x^2 - 3 \\
\hline
\mp x^4 \pm 3x^2 & x^2 - 3x + 3 \\
\hline
-3x^3 + 3x^2 & \\
\pm 3x^3 \mp 9x & \\
\hline
3x^2 - 9x + 2 & \\
\mp 3x^2 \pm 9 & \\
\hline
-9x + 11 &
\end{array}
$$

Deməli $P(x) = x^4 - 3x^3 + 2$, $Q(x) = x^2 - 3$,
$R(x) = x^2 - 3x + 3$, $K(x) = -9x + 11$ olar.

$$\underbrace{\overset{P(x)}{x^4 - 3x^3 + 2}}_{\text{Bölünən}} = \underbrace{\overset{Q(x)}{(x^2 - 3)}}_{\text{Bölən}}\underbrace{\overset{R(x)}{(x^2 - 3x + 3)}}_{\text{Qismət}} + \underbrace{\overset{K(x)}{(-9x + 11)}}_{\text{Qalıq}}$$

Horner üsulu

P(x) çoxhədlisinin x-a iki hədlisinə bölmək üçün aşağıdakı yazılan şər... istifadə edilir:

1. $\begin{array}{c|c} I & II \\ \hline & III \end{array}$ formasında işarə daxil edilir.

2. P(x)-in əmsalları x-in azalan qüvvətinə görə I-nin yerində ya... Çoxhədlidə x-in hər hansı qüvvəti iştirak etmirsə, onun əmsalı kimi 0 götürü...

3. $x-a=0$-ın kökü olan $x=a$ qiyməti II-nin yerində yazılır.

4. Baş həddin əmsalı III-nün yerində yazılır. (I-nin olduğu sütunda)

5. a qiyməti baş həddə vurularaq sonrakı hədlə toplanır. Bu, uyğun qa... ilə bütün əmsallar üçün yerinə yetirilir.

6. Hesablamanın son nəticəsi P(x)-in (x-a)-ya bölünməsindən alınan qal... digərləri isə qismətdə alınan çoxhədlinin əmsallarını verir.

✔ P(x) çoxhədlisinin (x-a) -ya bölünməsindən alnan qalıq: P(a) - dir.

$P(x)=(x-a).Q(x)+K(x)$

$x=a$ üçün $P(a)=K(a)$ (sabit)

* P(x) çoxhədlisini $(x-a)^n$ bölünməsindən alınan qalıq K(x) isə, P(x)-i... (x-a) -ya bölünməsindən alınan qalıq K(a)-dır.

$P(a)=(a-a)^n\cdot Q(a)+K(a)$

$P(a)=K(a)$

Həqiqi üstlü qüvvət.
Kvadrat köklər

$a\in R$ və $n\in N$ olduqda a-nın n dəfə öz-özünə hasilinə a-nın n-ci qüvvəti deyilir və a^n kimi işarə edilir.

$\underbrace{a\cdot a\cdot a\ldots a}_{n\ dəfə}=a^n$

1. Sıfırdan fərqli həqiqi ədədin sıfırıncı qüvvəti 1-dir. Sıfırın sıfırıncı qüvvəti isə qeyri müəyyəndir.

$a^0=1 \qquad (a\neq 0);$

Misal:

$(12)^0=1, \qquad (1244)^0=1$

2. Qüvvəti qüvvətə yüksəldərkən əsas qalır, qüvvət üstləri vurulur.

$(a^k)^m=a^{km}$

Misal:

$(3^4)^6=3^{4\cdot 6}=3^{24}$

3. $((a^k)^m)^n=a^{k\cdot m\cdot n}$

Misal:

$((5^2)^3)^4=5^{2\cdot 3\cdot 4}=5^{24}$

4. Mənfi üstlü qüvvət həmin əsasdan müsbət üstlü qüvvətin tərs qiymətinə bərabərdir.

$a^{-m}=\frac{1}{a^m} \qquad (a\neq 0)$

Misal:

$9^{-1}=\frac{1}{9}, \qquad 12^{-1}=\frac{1}{12}$

5. $\left(\frac{a}{b}\right)^{-m}=\left(\frac{b}{a}\right)^{m} \qquad (a\neq 0,\ b\neq 0)$

Misal:

$\left(\frac{4}{3}\right)^{-5}=\left(\frac{3}{4}\right)^{5}$

6. Müsbət ədədin bütün qüvvətləri müsbətdir. Mənfi ədədin isə tək qüvvəti mənfi, cüt qüvvəti müsbətdir.

$a > 0$ və $n \in Z$ üçün $(-a)^{2n} = a^{2n}$ $\quad (-a)^{2n-1} = -a^{2n-1}$

Misal:

- $-2^4 = -16$
- $[(-2^4)^3]^5 = -2^{60}$
- $-3^4 = -81$
- $[(-2^3)^4]^5 = 2^{60}$

7. $a^n = 1 \Rightarrow a \neq 0$ və $n = 0$; $a = 1$ və $n \in R$; $a = -1$ və n-cüt

8. $a^m \cdot a^n = a^{m+n}$ $\qquad 3^4 \cdot 3^6 = 3^{10}$

9. $a^m \cdot b^m = (ab)^m$ $\qquad 3^4 \cdot 6^4 = (3 \cdot 6)^4 = (18)^4$

10. $a^m : a^n = a^{m-n}$ $\qquad \frac{7^{14}}{7^4} = 7^{14-4} = 7^{10}$

11. $a^m : b^m = \frac{a^m}{b^m} = \left(\frac{a}{b}\right)^m$ $\qquad \frac{3^4}{7^4} = \left(\frac{3}{7}\right)^4$

12. $a \neq 0,\ a \neq 1,\ a \neq -1$ isə $\quad a^m = a^n \Rightarrow m = n$

13. $a^m = b^m \Rightarrow \begin{cases} a = b, & m \text{ tək} \\ a = \pm b, & m \text{ cüt} \end{cases}$

Misal 1:
$(3x - 4)^7 = (2x + 6)^7$ isə, $x = ?$
$3x - 4 = 2x + 6 \Rightarrow x = 10$

Misal 2:
$(2x - 1)^4 = (x + 1)^4$
I. $2x - 1 = x + 1$
$x = 2$
II. $2x - 1 = -(x + 1)$
$x = 0$

14. $a^n \cdot b^n \cdot c^n = (a \cdot b \cdot c)^n$ $\qquad 3^6 \cdot 2^6 \cdot 7^6 = (3 \cdot 2 \cdot 7)^6 = 42^6$

15. $a^n \cdot a^m \cdot a^t = a^{m+n+t}$ $\qquad 7^2 \cdot 7^4 \cdot 7^{10} = 7^{2+4+10} = 7^{16}$

$n \geq 1$ natural ədədi və a həqiqi ədədi üçün $x^n = a$ tənliyi aşağıdakı (1) şərti ödədikdə belə həll olunur.

$x^n = a \Rightarrow x = \sqrt[n]{a}$ və x - ə a-nın n-ci **dərəcədən kökü** deyilir.

- **Köklü ifadələr üzərində əməllər**

1. $\sqrt[n]{a} \in R \Rightarrow \begin{cases} n - \text{tək} \\ n - \text{cüt},\ a \geq 0 \end{cases}$

$\sqrt[n]{a} \notin R \Rightarrow$ n cüt və $a < 0$

2. Rasional qüvvət: $\quad a > 0$ və $\frac{m}{n}$ $(m \in Z, n \in N)$ olarsa, $a^{\frac{m}{n}} = \sqrt[n]{a^m}$

Qeyd 1: Mənfi ədədlərin kəsr üstlü qüvvətlərinə baxılmır.
Qeyd 2: Sıfrın yalnız müsbət kəsr üstlü qüvvətlərin mənası var.

$\sqrt[2]{16} = \sqrt[2]{2^4} = 2^{\frac{4}{2}} = 2^2 = 4$

3. $\frac{\sqrt{a}}{\sqrt{b}} = \sqrt{\frac{a}{b}}$, $\frac{\sqrt{33}}{\sqrt{3}} = \sqrt{\frac{33}{3}} = \sqrt{11}$

4. $\sqrt[m]{a^m} = a$ $\quad$; əgər m tək isə;

$\sqrt[m]{a^m} = |a|$; əgər m cüt isə.

Misal: $\sqrt[3]{5^3} = 5$; $\quad \sqrt[3]{(-2)^3} = -2$; $\quad \sqrt[4]{(-4)^4} = |4| = 4$

✔ $k \in N$ isə, aşağıdakı münasibətlər doğrudur.

5. $\sqrt[m]{a^n} = \sqrt[m \cdot k]{a^{n \cdot k}}$ $\qquad \sqrt[7]{2^3} = \sqrt[7 \cdot 4]{2^{3 \cdot 4}} = \sqrt[28]{2^{12}}$

6. $\sqrt[m]{a^n} = \sqrt[m:k]{a^{n:k}}$ $\qquad \sqrt[8]{10^6} = \sqrt[8:2]{10^{6:2}} = \sqrt[4]{10^3}$

7. $\sqrt[m]{a^{mp} \cdot c} = a^p \cdot \sqrt[m]{c}$ (m-tək); $\sqrt[m]{a^{mp} \cdot c} = |a^p| \cdot \sqrt[m]{c}$ (m-cüt)

$a^p \cdot \sqrt[m]{c} = \sqrt[m]{a^{mp} \cdot c}$ (m-tək); $a^p \cdot \sqrt[m]{c} = \sqrt[m]{a^{mp} \cdot c}$ (m-cüt, $a^p > 0$)

$a^p \cdot \sqrt[m]{c} = -\sqrt[m]{a^{mp} \cdot c}$ (m-cüt, $a^p < 0$)

8. $\sqrt[m]{\sqrt[n]{\sqrt[p]{a}}} = \sqrt[m \cdot n \cdot p]{a}$

9. $\sqrt[m]{a\sqrt[n]{b\sqrt[p]{c}}} = \sqrt[m\cdot n\cdot p]{a^{n\cdot p}\cdot b^{p}\cdot c}$

10. $\sqrt[m]{a^{x}\sqrt[n]{a^{y}\sqrt[p]{a^{z}}}} = \sqrt[m\cdot n\cdot p]{a^{(x\cdot n+y)p+z}}$

11. $\underbrace{\sqrt{a\sqrt{a\sqrt{a\ldots\sqrt{a}}}}}_{n \text{ dəfə}} = a^{\frac{2^{n}-1}{2^{n}}}$ $\qquad \sqrt{3\sqrt{3\sqrt{3\sqrt{3}}}} = 3^{\frac{2^{4}-1}{2^{4}}} = 3^{\frac{15}{16}}$

12. **Mürəkkəb kök düsturu**

$$\sqrt{a\pm\sqrt{b}} = \sqrt{\frac{a+\sqrt{a^{2}-b}}{2}} \pm \sqrt{\frac{a-\sqrt{a^{2}-b}}{2}}$$

13. $\sqrt{m+n\pm2\sqrt{m\cdot n}} = \sqrt{m}\pm\sqrt{n}$ $(m>n>0)$

Misal:

- ✓ $\sqrt{7+2\sqrt{12}} = \sqrt{4+3+2\sqrt{3\cdot4}} = \sqrt{4}+\sqrt{3} = 2+\sqrt{3}$
- ✓ $\sqrt{8+2\sqrt{15}} = \sqrt{3+5+2\sqrt{5\cdot3}} = \sqrt{5}+\sqrt{3}$
- ✓ $\sqrt{7-2\sqrt{6}} = \sqrt{6+1-2\sqrt{6}} = \sqrt{6}-1$
- ✓ $\sqrt{7-2\sqrt{10}} = \sqrt{5+2-2\sqrt{5\cdot2}} = \sqrt{5}-\sqrt{2}$

Sonsuz köklər

14. $\sqrt{a\sqrt{a\sqrt{a\ldots}}} = a$ $\qquad \sqrt{6\sqrt{6\sqrt{6\ldots}}} = 6$

15. $\sqrt[n]{a\sqrt[n]{a\sqrt[n]{a\ldots}}} = \sqrt[n-1]{a}$ $\qquad \sqrt[3]{625\sqrt[3]{625\sqrt[3]{625\ldots}}} = \sqrt{625} = 25$

16. $\sqrt[n]{a:\sqrt[n]{a:\sqrt[n]{a\ldots}}} = \sqrt[n+1]{a}$ $\qquad \sqrt[5]{4:\sqrt[5]{4:\sqrt[5]{4\ldots}}} = \sqrt[6]{4} = \sqrt[6]{2^{2}} = \sqrt[3]{2}$

17. $\sqrt{a\pm\sqrt{a\pm\ldots}} = \dfrac{\sqrt{4a+1}\pm1}{2}$

Misal:

- ✓ $\sqrt{12+\sqrt{12+\sqrt{12\ldots}}} = \dfrac{\sqrt{4\cdot12+1}+1}{2} = 4$
- ✓ $\sqrt{30-\sqrt{30-\sqrt{30\ldots}}} = \dfrac{\sqrt{4\cdot30+1}-1}{2} = 5$

18. a ardıcıl iki müsbət ədədin hasili isə, yəni $a=n(n+1)$ olarsa,

$$\sqrt{a+\sqrt{a+\sqrt{a\ldots}}} = n+1$$

$$\sqrt{a-\sqrt{a-\sqrt{a\ldots}}} = n$$

Misal:

$12=3\cdot4$ olduğundan, $\sqrt{12+\sqrt{12+\sqrt{12\ldots}}} = 4$ olar.

$30=5\cdot6$ olduğundan, $\sqrt{30+\sqrt{30+\sqrt{30\ldots}}} = 6$ olar.

$20=4\cdot5$ olduğundan, $\sqrt{20-\sqrt{20-\sqrt{20\ldots}}} = 4$ olar.

Bəzi köklü ifadələrin qoşması

p	q	p·q
$\sqrt[m]{a^{n}}$	$\sqrt[m]{a^{m-n}}$	a
$\sqrt{a}-\sqrt{b}$	$\sqrt{a}+\sqrt{b}$	a-b
$\sqrt[3]{a}-\sqrt[3]{b}$	$\sqrt[3]{a^{2}}+\sqrt[3]{ab}+\sqrt[3]{b^{2}}$	a-b
$\sqrt[3]{a}+\sqrt[3]{b}$	$\sqrt[3]{a^{2}}-\sqrt[3]{ab}+\sqrt[3]{b^{2}}$	a+b

19. $\dfrac{1}{\sqrt{a}+\sqrt{b}} = \dfrac{\left(\sqrt{a}-\sqrt{b}\right)}{\left(\sqrt{a}+\sqrt{b}\right)\cdot\left(\sqrt{a}-\sqrt{b}\right)} = \dfrac{\sqrt{a}-\sqrt{b}}{a-b}$

- ✓ $\dfrac{1}{\sqrt{7}+\sqrt{2}} = \dfrac{\left(\sqrt{7}-\sqrt{2}\right)}{\left(\sqrt{7}+\sqrt{2}\right)\cdot\left(\sqrt{7}-\sqrt{2}\right)} = \dfrac{\sqrt{7}-\sqrt{2}}{5}$

✓ $$\frac{6}{\sqrt{11}+\sqrt{5}}=\frac{6\cdot(\sqrt{11}-\sqrt{5})}{(\sqrt{11}+\sqrt{5})\cdot(\sqrt{11}-\sqrt{5})}=\frac{6\cdot(\sqrt{11}-\sqrt{5})}{6}=\sqrt{11}-\sqrt{5}$$

✓ $$\frac{7}{\sqrt{17}-\sqrt{10}}=\frac{7\cdot(\sqrt{17}+\sqrt{10})}{(\sqrt{17}-\sqrt{10})\cdot(\sqrt{17}+\sqrt{10})}=\frac{7\cdot(\sqrt{17}+\sqrt{10})}{7}=\sqrt{17}+\sqrt{10}$$

✓ Məxrəci $\sqrt[3]{a}\pm\sqrt[3]{b}$ şəklində olan ifadənin surət və məxrə... $\sqrt[3]{a^2}\mp\sqrt[3]{ab}+\sqrt[3]{b^2}$ ifadəsinə vurulur:

$$\frac{1}{\sqrt[3]{a}\pm\sqrt[3]{b}}=\frac{\sqrt[3]{a^2}\mp\sqrt[3]{ab}+\sqrt[3]{b^2}}{(a\pm b)}$$

Misal:

✓ $$\frac{7}{\sqrt[3]{5}+\sqrt[3]{2}}=\frac{7\cdot(\sqrt[3]{5^2}-\sqrt[3]{5\cdot2}+\sqrt[3]{2^2})}{(5+2)}=\sqrt[3]{25}-\sqrt[3]{10}+\sqrt[3]{4}$$

✓ $$\frac{1}{\sqrt[3]{3}-\sqrt[3]{2}}=\frac{\sqrt[3]{3^2}+\sqrt[3]{3\cdot2}+\sqrt[3]{2^2}}{3-2}=\sqrt[3]{9}+\sqrt[3]{6}+\sqrt[3]{4}$$

Tənliklər

Bir dərəcəli bir məchullu tənliklər

$ax+b=0$ şəklində tənliyə bir dərəcəli bir məchullu tənlik deyilir. Burada x-dəyişən (məchul), a və b isə məlumlardır.

* Bu tip tənliyin həllinin varlığı üçün aşağıdakı şərtlər vardır:

I. $a\neq0$ üçün $ax+b=0$ tənliyinin yeganə $x=-\frac{b}{a}$ kökü var.

II. $a=0$ və $b=0$ üçün tənliyin sonsuz kökü var, $(-\infty;+\infty)$
Yəni $x\in R$-dir.

III. $a=0$ və $b\neq0$ üçün tənliyin həlli yoxdur. Yəni $x\in\varnothing$ -dir.

Bir dərəcəli iki məchullu tənliklər sistemi

Sistemin ümumi forması belədir.

$$\begin{cases}a_1x+b_1y=c_1 & \text{(I)}\\ a_2x+b_2y=c_2 & \text{(II)}\end{cases}$$

Burada $a_1, b_1, a_2, b_2, c_1, c_2$ verilən həqiqi ədədlərdir.
Bu sistemin həllinin varlığı üçün aşağıdakı şərtlər vardır:

1. $\frac{a_1}{a_2}=\frac{b_1}{b_2}=\frac{c_1}{c_2}$ olduqda, sistemin sonsuz sayda həlli vardır.

Misal:

$$\left.\begin{array}{l}8x+6y=10\\ 4x+3y=5\end{array}\right\}$$

$\frac{8}{4}=\frac{6}{3}=\frac{10}{5}=2$ Sistemin sonsuz sayda həlli var.

2. $\frac{a_1}{a_2}=\frac{b_1}{b_2}\neq\frac{c_1}{c_2}$ olduqda, sistemin həlli yoxdur.

3. $\frac{a_1}{a_2}\neq\frac{b_1}{b_2}$ olduqda, sistemin yeganə həlli vardır.

Sistemin həlli üsulları

- ✔ *Əvəzetmə üsulu*

1. (I) və ya (II) - də y tapılır.
2. y-in qiymətini digər tənlikdə yerinə yazaraq x tapılır.

- ✔ *Toplama üsulu*

1. x və ya y - dən birinin əmsalları bərabərləşir.
2. Tərəf-tərəfə çıxmaqla əmsalları eyni olan dəyişənlər yox edilir.
3. Dəyişənlərdən biri tapılır və (I) və ya (II) də yerinə yazılaraq o biri dəyişən tapılır:

$$\begin{matrix} b_2 \\ b_1 \end{matrix}\begin{cases} a_1x + b_1y = c_1 \\ a_2x + b_2y = c_2 \end{cases}$$

$$-\begin{cases} a_1b_2x + b_1b_2y = c_1b_2 \\ a_2b_1x + b_2b_1y = c_2b_1 \end{cases}$$

$$x = \frac{c_1b_2 - c_2b_1}{a_1b_2 - a_2b_1} \qquad y = \frac{a_1c_2 - a_2c_1}{a_1b_2 - a_2b_1}$$

- ✔ *Müqayisə üsulu*

$$\left.\begin{aligned} &(I)\ \ y = \frac{c_1 - a_1x}{b_1} \\ &(II)\ y = \frac{c_2 - a_2x}{b_2} \end{aligned}\right\} \qquad \frac{c_1 - a_1x}{b_1} = \frac{c_2 - a_2x}{b_2}$$

Kvadrat tənliklər

$a, b, c \in R$ və $a \neq 0$ olmaqla $ax^2 + bx + c = 0$ bərabərliyinə *2 dərəcəli bir dəyişənli* tənlik deyilir.

$D = b^2 - 4ac$ ifadəsinə bu tənliyin diskriminantı deyilir. Diskriminantın köməyi ilə bu tənliyin kökləri belə tapılır.

$$x_1 = \frac{-b + \sqrt{D}}{2a} \qquad \text{və} \quad x_2 = \frac{-b - \sqrt{D}}{2a}$$

Yarıya bölmə düsturu:

$ax^2 + bx + c = 0$ tənliyində b cüt ədəd olarsa, onda köklər belə tapılır:

$$D_1 = \left(\frac{b}{2}\right)^2 - ac\ ; \quad x_{1,2} = \frac{-\frac{b}{2} \pm \sqrt{D_1}}{a}$$

Əmsallar üzərində əməllər

$ax^2 + bx + c = 0$ tənliyində

I. $a + b + c = 0$ isə, köklər

$$x_1 = 1; \qquad x_2 = \frac{c}{a}$$

II. $a - b + c = 0$ isə köklər:

$$x_1 = -1; \qquad x_2 = -\frac{c}{a}$$

III. $c = 0$ isə, köklər:

$$x_1 = 0; \qquad x_2 = -\frac{b}{a}$$

IV. $b = 0$ isə, köklər:

$$x_1 = +\sqrt{-\frac{c}{a}} \qquad \text{və} \quad x_2 = -\sqrt{-\frac{c}{a}}$$

Bu zaman deyirlər ki, tənliyin 2 simmetrik kökü var. Əgər.

$a \cdot c \leq 0$ isə, simmetrik köklər həqiqi,

$a.c > 0$ isə, simmetrik köklər kompleksdir.

V. $a_1x^2 + b_1x + c_1 = 0$ və

$a_2x^2 + b_2x + c_2 = 0$ tənliklərinin eyni kökü olması üçün $\frac{a_1}{a_2} = \frac{b_1}{b_2} = \frac{c_1}{c_2}$ olmalıdır.

Köklərin varlığı

$ax^2 + bx + c = 0$ tənliyinin $x_{1,2} = \frac{-b \pm \sqrt{D}}{2a}$ köklərinin varlığı D (diskriminant)dan asılıdır.

I. $D \geq 0$ olduqda, tənliyin həqiqi kökləri vardır.

$D>0$ isə, tənliyin 2 müxtəlif kökü vardır və onlar belə tapılır: $x_1 = \frac{-b - \sqrt{D}}{2a}$;

$$x_2 = \frac{-b + \sqrt{D}}{2a}$$

D=0 olduqda isə tənliyin bir (iki bərabər) kökü var və belə tapılır: $x_1 = x_2 = -\frac{b}{2a}$

II. D<0 olduqda tənliyin həqiqi kökləri olmur və ancaq kompleks kökləri olur.

Köklər və əmsallar arasındakı asılılıq $x_1 = \frac{-b-\sqrt{D}}{2a}$ və $x_2 = \frac{-b+\sqrt{D}}{2a}$ *olduqda, aşağıdakılar doğrudur:*

- ✔ $x_1 + x_2 = -\frac{b}{a}$;
- ✔ $x_1 \cdot x_2 = \frac{c}{a}$
- ✔ $\frac{1}{x_1} + \frac{1}{x_2} = -\frac{b}{c}$;
- ✔ $\frac{1}{x_1 \cdot x_2} = \frac{a}{c}$
- ✔ $x_1^2 + x_2^2 = \frac{b^2 - 2ac}{a^2}$;
- ✔ $\frac{1}{x_1^2} + \frac{1}{x_2^2} = \frac{b^2 - 2ac}{c^2}$;
- ✔ $x_1^3 + x_2^3 = \frac{-b^3 + 3abc}{a^3}$;

$\frac{1}{x_1^3} + \frac{1}{x_2^3} = \frac{-b^3 + 3abc}{c^3}$;

$|x_1 - x_2| = \frac{\sqrt{D}}{|a|}$; $x_1^2 x_2 + x_2^2 x_1 = \frac{-bc}{a^2}$

Bəzi düsturlar

- ✔ $x_1^2 + x_2^2 = (x_1 + x_2)^2 - 2x_1x_2 = (x_1 - x_2)^2 + 2x_1x_2$
- ✔ $x_1^3 + x_2^3 = (x_1 + x_2)^3 - 3x_1x_2(x_1 + x_2)$
- ✔ $(x_1 - x_2)^2 = (x_1 + x_2)^2 - 4x_1x_2$
- ✔ $x_1^3 - x_2^3 = (x_1 - x_2)^3 + 3x_1x_2(x_1 - x_2)$

Köklərinə görə ikidərəcəli tənliyin qurulması

Kökləri x_1 və x_2 olan ikidərəcəli tənliyi belə qurmaq olar:

$(x - x_1)(x - x_2) = 0$

$x^2 - \underbrace{(x_1 + x_2)}_{-\frac{b}{a}}x + \underbrace{x_1x_2}_{\frac{c}{a}} = 0$

Misal 1:

Kökləri 4 və 5 olan ikidərəcəli tənliyi qurun.

$x^2 - (x_1 + x_2)x + x_1x_2 = 0$

$x_1 = 4$ və $x_2 = 5$

$x^2 - (4 + 5)x + 5 \cdot 4 = 0$

$x^2 - 9x + 20 = 0$

Misal 2:

Kökləri $2 + \sqrt{3}$ və $2 - \sqrt{3}$ olan ikidərəcəli tənliyi qurun.

$x_1 = 2 + \sqrt{3}$ və $x_2 = 2 - \sqrt{3}$

$x^2 - (x_1 + x_2)x - x_1x_2 = 0$

$x^2 - (2 + \sqrt{3} + 2 - \sqrt{3})x + (2 + \sqrt{3})(2 - \sqrt{3}) = 0$

$x^2 - 4x + 1 = 0$

Üçdərəcəli tənlikdə köklər və əmsallar arasında asılılıq

$ax^3 + bx^2 + cx + d = 0$ tənliyinə ($a \neq 0$, a, b, c, d $\in R$)

Bu tənliyin kökləri x_1, x_2, x_3 olduqda aşağıdakı bərabərliklər doğrudur.

- ✔ $x_1 + x_2 + x_3 = -\frac{b}{a}$
- ✔ $x_1x_2 + x_1x_3 + x_2x_3 = \frac{c}{a}$
- ✔ $x_1x_2x_3 = -\frac{d}{a}$
- ✔ $\frac{1}{x_1} + \frac{1}{x_2} + \frac{1}{x_3} = -\frac{c}{d}$

- ✓ $x_1^2 + x_2^2 + x_3^2 = \frac{b^2 - 2ac}{a^2}$
- ✓ $\frac{1}{x_1x_2} + \frac{1}{x_1x_3} + \frac{1}{x_2x_3} = \frac{b}{d}$
- ✓ $\frac{x_1}{x_2x_3} + \frac{x_2}{x_1x_3} + \frac{x_3}{x_1x_2} = \frac{2ac - b^2}{ad}$

Əgər x_1, x_2, x_3 kökləri ədədi silsilə əmələ gətirərsə onda aşağıdakılar doğrudur:

- ✓ $\frac{x_1 + x_3}{2} = x_2 \Rightarrow x_1 + x_3 = 2x_2$
- * $x_2 = -\frac{b}{3a}$

Həndəsi silsilə olarsa,

$\sqrt{x_1x_3} = x_2 \Rightarrow x_1x_3 = x_2^2$

$x_2 = \sqrt[3]{-\frac{d}{a}}$

Qeyd: *n dərəcəlidən tənliyin kökləri cəmi* $-\frac{b}{a}$, *hasili isə*

$$(-1)^n \cdot \frac{\text{sərbəst hədd}}{a} \text{ olur.}$$

Məsələn: $5x^{14} - 4x^{13} + 3x^2 - 10 = 0$ üçün;

$x_1 + x_2 + \ldots + x_{14} = -\frac{-4}{5} = \frac{4}{5}$

$x_1 \cdot x_2 \cdot \ldots \cdot x_{14} = (-1)^{14} \frac{-10}{5} = -2$ olar.

Tənlik qurmaq üsulu ilə məsələlərin həlli

Yaş məsələləri

- * İki adam arasında yaş fərqi zaman keçdikcə dəyişməz.
- * İki adamın yaşları cəmi t ildən sonra 2t qədər artar.

- * Bir adamın yaşı x olarsa t ildən sonra yaşı x+t, t il öncəki yaşı isə x-t olar.
- * n sayda adamın yaşlarının cəmi x olarsa, t ildən sonra yaşlarının cəmi x+nt, t il öncəki yaşlarının cəmi isə x-nt olar.

Saat məsələləri

Saat və dəqiqə əqrəbi arasındakı bucaq $\hat{x} = \frac{|11d - 60s|}{2}$ düsturu ilə ölçülür.

Burada d-dəqiqə, s-saat, x-dəqiqə və saat əqrəbləri arasında qalan bucaqdır. Aşağıdakıları bilmək vacibdir.

- ✓ Saat çevrəsi 12 bərabər hissəyə bölünür.
- ✓ Hər hissə yenidən 5 bərabər hissəyə bölünür.
- ✓ Saat çevrəsi $5 \cdot 12 = 60$ bərabər hissəyə ayrılmışdır. Bu bölmələrin hər biri 1 dəqiqəni göstərir.
- ✓ Bir dəqiqə $\frac{360^0}{60} = 6^0$-lik mərkəzi bucağa uyğundur.
- ✓ Dəqiqə əqrəbi 60 dəqiqə getdikdə, saat əqrəbi 5 bölmə gedir.
- ✓ Saat əqrəbi 1 bölmə getdikdə, dəqiqə əqrəbi $\frac{60^0}{5} = 12^0$ dəqiqə gedir.

Hərəkət məsələləri

- ✓ S : Yol, V: Sürət, t: zaman, qəbul edək. Onda,

$$S = V \cdot t, \quad V = \frac{S}{t}, \quad t = \frac{S}{V}$$

- ✓ Sürət ilə yol düz, sürət ilə zaman tərs mütənasibdir.

$$\frac{V_1}{V_2} = \frac{S_1}{S_2}, \quad \frac{V_1}{V_2} = \frac{t_2}{t_1}$$

İki cisim eyni zamanda qarşı-qarşıya hərəkət etməyə başlayırsa, $t = \frac{x}{\vartheta_1 + \vartheta_2}$ olar. AB = x



Bu cisimlər eyni istiqamətdə hərəkət etdikləri zaman isə $t=\frac{x}{|\vartheta_1-\vartheta_2|}$

✓ Orta Sürət V:

$$V_o=\frac{\text{Bütün yolların cəmi}}{\text{Bütün zamanların cəmi}}$$

✓ Yolun birinci yarısı V_1 sürətlə, o biri yarısı isə V_2 sür'ətlə gedilərsə, orta sürət $V_0=\frac{2V_1V_2}{V_1+V_2}$ olar.

✓ Çevrə üzrə hərəkət;





$V_1+V_2=\frac{S}{t}$ Eyni anda əks istiqamətdə

$V_1-V_2=\frac{S}{t}$ Eyni anda eyni istiqamətdə

İşçi-hovuz məsələləri

✓ Bir iş a saata görülərsə, 1 saatda işin $\frac{1}{a}$ hissəsi görülür.

✓ Bir işi I işçi a saata, II işçi b saata, ikisi birlikdə x saata görərsə, onda, $\frac{1}{a}+\frac{1}{b}=\frac{1}{x}$ doğrudur və ya $x=\frac{a\cdot b}{a+b}$

Misal:
Bir işi I fəhlə 4 günə, II fəhlə 6 günə qurtarır. İkisi bu işi neçə günə qurtarar?

